# *Yakub ASLAN:* "Ermənistan Zəngəzur dəhlizinin reallaşmasının qarşısını almaq iqtidarına malik deyil"

**"İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Qarabağı azad etməsi regionda yeni reallıqlar yaradıb ki, bu da beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına və Avropa ilə Asiyanın nəqliyyat əlaqələrinin genişlənməsi zərurətini ortaya çıxarıb. Azərbaycanın irəli sürdüyü Zəngəzur dəhlizi beynəlxalq əhəmiyyət daşıyır və bu layihəni nəinki region dövlətləri, eləcə də Avropa və Asiya ölkələri də dəstəkləyirlər. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bu layihə dünyanın iki böyük qitəsinin iqtisadi inkişafına əsaslı təkan verərək, tranzit yüklərin daşınmasına, ticarət əlaqələrinin və dövlətlər arasındakı ticarət dövriyyəsinin artması, yeni iş yerlərinin açılmasına, istehsalın, ixrac və idxalın əhatə dairəsinin böyüməsinə imkan yaradacaq".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında CGTN (China Global Television Network Turk) kanalının siyasi şərhçisi Yakub Aslan səsləndirib.

O bildirib ki, Ermənistan bu layihənin qarşısını almaq iqtidarında deyil. Regionun bütün dövlətləri bu layihəni dəstəklədiyi halda, rəsmi İrəvanın bunun əleyhinə çıxaraq destruktiv mövqe tutması onun özünü çox gərgin vəziyyətə salacaq. Bu dəfə də Ermənistan Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələrində olduğu kimi, iqtisadi gəlirlərdən və siyasi dividenddən kənarda qala bilər.

Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunan müşavirədəki çıxışında dediyi kimi: "Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq. Düzdür, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sergiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır. Ermənistan isə buna əməl etmir, müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur. Yəqin ki, siz də eşitmisiniz, dırnaqarası "Sülh kəsişməsi" layihəsini ortalığa atıb və indi dünyada bir ölkə qalmayıb ki, o ölkəyə bu layihə təqdim edilməsin. Halbuki bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur və biz bunu dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırmışıq".

Azərbaycan Prezidentinin fikirlərindən belə aydın olur ki, Ermənistan bu layihənin əleyhinə çıxış etməklə özünü dünyanın iki böyük qitəsindəki dövlətlərlə üz-üzə qoyur. İqtisadi inkişafın qarşısını və tranzit yollarını kəsməklə rəsmi İrəvan yenə də özünü təcrid olunmuş vəziyyətə salır.

Y.Aslan onu da vurğulayıb ki, Ermənistan Zəngəzur dəhlizinin reallaşmasına əngəl törədərək, türk birliyinin möhkəmlənməsinin qarşısını almağa cəhd göstərir. Lakin burada söhbət yalnız türk dövlətlərinin birləşməsindən getmir. Əlbəttə ki, türk dövlətləri heç nəyə baxmayaraq, onsuz da sıx əməkdaşlıq edirlər. Türk Dövlətləri Təşkilatının fəaliyyəti buna bariz nümunədir. Eyni zamanda bu gün iqtisadi böhran ərəfəsində olan Avropa dövlətləri ticarət əlaqələrinin genişlənməsi üçün yollar axtarır. Avropanı Türkiyə, Azərbaycan, Mərkəzi Asiya və Çin ilə birləşdirəcək Zəngəzur dəhlizi inkişafın və tərəqqinin əsasını təşkil edir. Bu baxımdan Avropaya inteqrasiya siyasəti həyata keçirən Ermənistan çox ziddiyyətli olan revanş siyasəti yürütmək fikrindədir ki, bu da nə Avropada, nə də Asiyada qəbul ediləcək.

Siyasi şərhçi hesab edir ki, Prezident İlham Əliyevin irəli sürdüyü beynəlxalq əhəmiyyətli növbəti iqtisadi layihə Zəngəzur dəhlizi və onun tərkib hissəsi olan Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xəttidir. Ümumilikdə Orta dəhlizə daxil olan bu layihələr, sadəcə, Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmək xarakteri daşımır. Bu layihələr daha qlobal xarakter daşıyır və Avropa ilə Asiyanın ticarət əlaqələri üçün olduqca əlverişlidir. Layihədə dünyanın iqtisadi nəhəngi hesab olunan Çinin xüsusi marağı var. Çin Avropa ilə ixrac-idxal əməliyyatlarını daha da genişləndirmək üçün qısa, təhlükəsiz və ucuz başa gələn yol axtarışındadır. Bu mənada Zəngəzur dəhlizinin Çin tərəfindən dəstəklənməsi də təsadüfi deyil. Gələcəkdə yüklər qatarla Çindən çıxaraq Qırğızıstan-Özbəkistan-Qazaxıstan-Azərbaycan-Türkiyə marşrutu üzrə Avropaya və əks istiqamətə daşınacaq.

Zəngəzur dəhlizinə Çinlə yanaşı, Avropa İttifaqı da maraq göstərir. Rusiya-Ukrayna müharibəsinin nə qədər davam edəcəyi bəlli deyil və Avropa dövlətləri Asiya qitəsi ilə ticarət əlaqələrini davam etdirmək üçün yeni yollar axtarırlar. Azərbaycan Prezidentinin irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsü həm Qərbin, həm də Şərqin maraqlarına, eləcə də region dövlətlərinin mənafeyinə uyğundur. Bir tərəfdən məğlub olan Ermənistan, digər tərəfdən yenə də beynəlxalq iqtisadi layihədən kənarda qalaraq düşəcəyi vəziyyət barəsində ciddi düşünməlidir.

Siyasi şərhçi onu da qeyd edib ki, Ermənistanın başlıca problemi rəsmi İrəvanın müstəqil siyasət apara bilməməsindədir. Mütəmadi olaraq bu və ya digər siyasi bloklara xidmət edən siyasi xətt sonda öz mənfi nəticələrini ortaya qoyacaq.



Azərbaycan.- 2025.-1 fevral (№221.- S.8.